| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2025 | 31 dekabr 2024 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əsas vəsaitlər | 11 | 224.706 | 108.478 |
| Qeyri maddi aktiv | | 59.829 | 59.829 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | ***284.535*** | ***168.307*** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 89.597 | 172.224 |
| Debitor borclar | 13 | 1.103.104 | 829.555 |
| Ehtiyyatlar | 14 | 609.962 | 776.589 |
| Digər aktivlər | | 1.770.052 | 1.814.746 |
| ***Cəmi qısamüddətli aktivlər*** | | ***3.572.715*** | ***3.593.114*** |
| ***CƏMİ AKTİVLƏR*** | | ***3.857.250*** | ***3.761.421*** |
| ***KAPİTAL*** | | | |
| Nizamnamə kapitalı | | 177.829 | 177.829 |
| Bölüşdürülməmiş mənfəət | | 643.031 | 509.624 |
| NEİP | | -99 | 10.632 |
| ***CƏMİ KAPİTAL*** | | ***820.760*** | ***698.084*** |
| ***ÖHDƏLİKLƏR*** | | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| İcarə öhdəlikləri | | 0 | 0 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | | ***0*** | ***0*** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Ticarət və digər kreditor borcları | 15 | 2.622.530 | 2.615.027 |
| Alınmış avanslar | | 314.725 | 0 |
| Vergi öhdəlikləri | | 0 | 0 |
| Digər öhdəliklər | | 99.235 | 448.311 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | | ***3.036.490*** | ***3.063.337*** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | | ***3.036.490*** | ***3.063.337*** |
| ***CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL*** | | ***3.857.250*** | ***3.761.421*** |

Rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır (Tarix : 29 aprel 2026)

Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)
Direktor

| *Azərbaycan manatı ilə* | **Qeyd** | **2025** | **2024** |
|---|---|---|---|
| Gəlirlər | | 3.003.736 | 3.510.491 |
| Maya dəyəri | 16 | 1.926.979 | 2.684.529 |
| **Ümumi mənfəət** | | **1.076.757** | **825.962** |
| Ümumi və inzibati xərclər | 17 | 917.823 | 597.143 |
| **Əməliyyat mənfəəti** | | **158.934** | **228.819** |
| Məzənnə fərqi üzrə xərclər | | 0 | 0 |
| Maliyyə xərcləri | | 0 | 0 |
| Digər gəlirlər | | 0 | 996 |
| **Vergidən əvvəlki mənfəət** | | **158.934** | **229.815** |
| Mənfəət vergisi | | 36.258 | 45.963 |
| **İl üzrə mənfəət** | | **122.676** | **183.852** |
| Mənfəətin bölgüsü: | | | |
| ***Ana müəssisənin mənfəətdə payı*** | | ***133.407*** | ***180.085*** |
| ***Qeyri-nəzarət payları üzrə xalis mənfəət*** | | ***-10.731*** | ***3.767*** |

Rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır (Tarix : 29 aprel 2026)

Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)
Direktor

| *Azərbaycan manatı ilə* | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət və ya zərər | Qeyri-nəzarət payları | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2024 tarixinə qalıq** | **177.829** | **329.539** | **6.864** | **514.232** |
| İl üzrə mənfəət/zərər | 0 | 180.085 | 3.767 | **183.852** |
| **31 dekabr 2024 tarixinə qalıq** | **177.829** | **509.624** | **10.632** | **698.084** |
| İl üzrə mənfəət/zərər | 0 | 133.407 | -10.731 | **122.676** |
| **31 dekabr 2025 tarixinə qalıq** | **177.829** | **643.031** | **-99** | **820.760** |

Rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır (Tarix : 29 aprel 2026)

Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)
Direktor

| *Azərbaycan manatı ilə* | 2025 | 2024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Vergidən əvvəlki (zərər)/mənfəət | 158.934,3 | 229.815,2 |
| *Düzəlişlər:* | - | |
| Hesablanmış faizlər | - | - |
| Torpaq, tikili və avadanlıqlar üzrə köhnəlmə xərcləri | 56.176,6 | 27.119,7 |
| Torpaq, tikili və avadanlıqların xaricolması | - | - |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | - | - |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | **215.110,9** | **256.934,9** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | - | |
| Mal-material ehtiyatlarda (artım)/azalma | 166.627 | 1.163.301 |
| Debitor borclarda xalis (artım)/azalma | (266.729,3) | 9.890,2 |
| Digər aktivlər (artım)/azalma | 47.102,3 | 97.291,0 |
| Kreditor borclar (azalma)/artım | (1.724,8) | 40.384,2 |
| Digər öhdəliklər (azalma)/artım | (34.350) | (1.374.974) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **126.035,7** | **192.826,7** |
| Ödənilmiş mənfəət vergisi | (36.258,0) | (45.963,0) |
| Ödənilmiş faizlər | - | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **89.777,7** | **146.863,7** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | - | |
| Bina, qurğu və avadanlıqların alınması | (172.404,4) | (10.933,0) |
| Qeyri-maddi aktivlərin alınması | - | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | **(172.404,4)** | **(10.933,0)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | - | |
| Borc vəsaitlərində (azalma)/artım | - | - |
| Ödənilmiş dividendlər | - | - |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | **(82.626,7)** | **135.930,7** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **172.223,8** | **36.293,1** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **89.597,1** | **172.223,8** |

Rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır (Tarix : 29 aprel 2026)

Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)

Direktor

## 1 "Həsən Holding" MMC və əməliyyatları

***Ümumi informasiya.***

Hazırkı maliyyə hesabatları 31 dekabr 2025 tarixdə başa çatan il üzrə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq "Həsən Holding" MMC (Şirkət) üçün hazırlanmışdır. Şirkət Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq Azərbaycanda qeydiyyatdan keçmiş və bu ölkədə fəaliyyət göstərir. Şirkət 16 avqust 2004 tarixdə "Məhdud Məsuliyyətli Cəmiyyət" olaraq dövlət qeydiyyatından keçmişdir (qeydiyyat nömrəsi: 1700116471)

Şirkətin nizamnamə kapitalı 1000 AZN-dir və aşağıdakı şəxslərə məxsusdur :

70% - Pənahova Mətanət Maşallah qızı, 6% - "Medservis" özəl tibb mərkəzi, 6% - "Gənclik" idman sağlamlıq mərkəzi ictimai birliyi, 6% - "Həsən" KFT, 6% - "Arslan" firması, 6% - "Yantar" KM

***Əsas fəaliyyət.***

"Həsən Holding" MMC-nin əsas fəaliyyət sahəsi: Mənzərələrin dəyişdirilməsi üzrə xidmətlərin göstərilməsi

***Şirkətin hüquqi ünvanı.***

Şirkətin hüququ ünvanı :Bakı Şəhəri, Səbail rayonu, Lermontov küçəsi 109

***Şirkətin törəmə müəssisəsi.***

"EMC" MMC : kapitalda % - 52% (31 dekabr 2025 və 31 dekabr 2024 tarixlərinə)

***Təqdimat valyutası.***

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

## 2 Fəaliyyət mühiti

Şirkət Azərbaycan Respublikasında fəaliyyət göstərir. Ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Hazırda Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir.

2025-ci il ərzində qlobal reytinq agentlikləri Azərbaycan üzrə əvvəlki müsbət xarici və yerli valyutada suveren kredit reytinqlərini bir daha təsdiqləyiblər. Ölkənin valyuta ehtiyatlarının uzunmüddətli artımı davam etmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə əsasən 2025-ci ildə ölkədə 129,1 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,7 faiz artmışdır. ÜDM istehsalının 33 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,5 faizi tikinti, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə sahələrinin, 21,7 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 12602,2 manata bərabər olmuşdur.

## 3 Maliyyə hesabatlarının tərtibatının əsasları

***Maliyyə hesabatlarının hazırlanması üzrə əsaslar.***

Hazırkı maliyyə hesabatları maliyyə alətlərinin ilkin olaraq ədalətli dəyərlə tanınması və investisiya mülkiyyətinin yenidən qiymətləndirilməsi üzrə dəyişikliklər də nəzərə alınmaqla Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS Mühasibat Uçotu Standartları") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot siyasətləri hər bir müvafiq Qeyddə təqdim edilmişdir. Başqa cür nəzərdə tutulmadığı təqdirdə, həmin uçot prinsipləri maliyyə hesabatlarında təqdim olunmuş bütün dövrlərə ardıcıl olaraq tətbiq edilmişdir.

Maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini də irəli sürməli olur. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr 4-cü Qeyddə açıqlanır.

***Əməliyyatlar və qalıqlar.***
Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə "məzənnə fərqi üzrə gəlir/(zərər)" kimi tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir, məzənnə fərqindən yaranan hər hansı effekt ədalətli dəyər üzrə gəlir və ya zərərin tərkib hissəsi olaraq nəzərə alınır.

## 4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Şirkət maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir: əsas vəsaitlərin, həmçinin istifadə hüquqlu aktivlərin amortizasiya dərəcələri; istifadə hüququ üzrə icarə müddətinin təyin edilməsi.

## 5 Yeni və ya yenilənmiş standartların tətbiqi

Aşağıdakı yeni standartlar və ya düzəlişlər 1 yanvar 2025-ci il tarixindən qüvvəyə minmişdir:

- MUBS 21-ə ("Xarici valyuta məzənnələrinin dəyişməsinin təsiri") dəyişikliklər – Valyutanın dəyişdirilə bilməməsi (15 avqust 2023-cü ildə dərc olunmuşdur və 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Düzəlişlər valyutanın dəyişdirilə bilmədiyi hallarda tətbiq olunmalı məzənnənin müəyyən edilməsi, alternativ məzənnə yanaşmalarının istifadə edilməsi və bu hallarla bağlı əlavə açıqlamaların verilməsi ilə bağlı tələbləri müəyyən edir.

Bu dəyişikliklərin tətbiqi Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 6 Yeni uçot standartları

Sonrakı dövrlər üçün qüvvəyə minəcək, lakin artıq qəbul olunmuş standart və düzəlişlər:
- MHBS 9 və MHBS 7-yə Düzəlişlər – Maliyyə Alətlərinin Təsnifatı və Ölçülməsi (30 may 2024-cü ildə qəbul edilmişdir və 1 yanvar 2026-cı il və ya daha sonrakı dövrlər üçün qüvvəyə minir).
- MHBS Mühasibat Standartlarına İllik Təkmilləşdirmələr (2024) (iyul 2024-cü ildə dərc olunmuşdur və 1 yanvar 2026-cı il və ya daha sonrakı dövrlər üçün qüvvəyə minir).
- MHBS 18 "Maliyyə Hesabatlarında Təqdimat və Açıqlama" (9 aprel 2024-cü ildə qəbul edilmişdir və 1 yanvar 2027-ci il və ya daha sonrakı dövrlər üçün qüvvəyə minir). Bu standart maliyyə hesabatlarında təqdimat və

açıqlama prinsiplərini yenidən müəyyən edir və xüsusilə "əməliyyat mənfəəti və ya zərəri" göstəricisinin açıqlamatına təsir edir.
- MHBS 19 "İctimai Hesabatlılıq tələbi olmayan törəmə müəssisələr: Açıqlamalar" (9 may 2024-cü ildə qəbul edilmişdir və 1 yanvar 2027-ci il və ya daha sonrakı dövrlər üçün qüvvəyə minir).
-MHBS 10 və MUBS 28-ə Düzəlişlər – İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi (11 sentyabr 2014-cü ildə dərc olunmuşdur və qüvvəyə minmə tarixi hələ müəyyən edilməmişdir).

## 7 Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.
31 dekabr 2025 və 2024 tarixlərinə, həmçinin həmin illər üzrə əlaqəli tərəflərlə qalıq və ya əməliyyatlar qeyd edilməmişdir.

## 8 Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının balans tarixinə qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.
Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır.
Təxirə salınmış mənfəət vergisi balans passivi metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatları məqsədləri üçün onların qalıq dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliklərin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərəri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

## 9 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların

istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar)

[illegible]dir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.
Maliyyə aktivləri və öhdəliklərinin balans dəyəri 3-cü səviyyədə ölçülür və təxminən onların ədalətli dəyərinə bərabərdir. Maliyyə öhdəliklərinin ədalətli dəyəri, analoji maliyyə alətləri üçün Şirkətdə mövcud olan cari bazar faiz dərəcəsi ilə gələcək müqavilə üzrə pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla təxmin edilir.

31 dekabr 2025 və 2024 tarixlərinə Şirkətin bütün maliyyə aktivləri və öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

## 10 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra açıqlanmalı olan əhəmiyyətli hadisələr baş verməmişdir.

## 11 Əsas vəsaitlər

Əsas vəsaitlər yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə çıxılmaqla, ilkin dəyərdə uçota alınır.
Əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır. Əsas vəsaitlərin hər təsnif qrupu üzrə faydalı istifadə müddəti "5 il" olaraq nəzərə alınmışdır.
Əsas vəsaitlərin balans dəyəri üzrə hərəkəti aşağıdakı kimi olmuşdur:

| | **Torpaq, tikili və qurğular** | **Maşınlar və avadanlıq** | **Nəqliyyat vasitələri** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024 Balans dəyəri** | **0** | **0** | **124.665** | **0** | **124.665** |
| Daxil olmuşdur | 0 | 10.933 | 0 | 0 | **10.933** |
| Təqdim edilmişdir | 0 | 0 | 0 | 0 | **0** |
| Amortizasiya xərci | 0 | 2.186 | 24.933 | 0 | **27.119** |
| **31 dekabr 2024 Balans dəyəri** | **0** | **8.747** | **99.732** | **0** | **108.479** |
| Daxil olmuşdur | 0 | 11.147 | 161.257 | 0 | **172.404** |
| Təqdim edilmişdir | 0 | 0 | 0 | 0 | **0** |
| Amortizasiya xərci | 0 | 3.379 | 52.798 | 0 | **56.177** |
| **31 dekabr 2025 Balans dəyəri** | **0** | **16.515** | **208.191** | **0** | **224.706** |

## 12 Pul vəsaitləri və onların ekvivalentləri

| ***Azərbaycan manatı ilə*** | ***2025*** | ***2024*** |
|---|---|---|
| Pul vəsaitləri | 89.597 | 172.224 |
| **CƏMİ** | **89.597** | **172.224** |

**13 Debitor borclar**

| *Azərbaycan manatı ilə* | *2025* | *2024* |
|---|---|---|
| Xarici borclar | 0 | 0 |
| Sair debitor borcları | 1.103.104 | 829.555 |
| **CƏMİ** | **1.103.104** | **829.555** |

**14 Ehtiyyatlar**

| *Azərbaycan manatı ilə* | *2025* | *2024* |
|---|---|---|
| Mallar | 609.962 | 776.589 |
| **CƏMİ** | **609.962** | **776.589** |

**15 Ticarət və digər kreditor borcları**

| *Azərbaycan manatı ilə* | *2025* | *2024* |
|---|---|---|
| Xarici borclar | 0 | 231.159 |
| Sair kreditor borcları | 2.622.530 | 2.383.868 |
| **CƏMİ** | **2.622.530** | **2.615.027** |

**16 Maya dəyəri**

| *Azərbaycan manatı ilə* | *2025* | *2024* |
|---|---|---|
| Xammal və materiallar | 1.926.979 | 2.684.529 |
| **CƏMİ** | **1.926.979** | **2.684.529** |

**17 Ümumi və inzibati xərclər**

| *Azərbaycan manatı ilə* | *2025* | *2024* |
|---|---|---|
| Əmək haqqlar | 342.165 | 288.999 |
| Sosial sığorta haqları | 63.253 | 58.436 |
| İcarə haqqı | 12.000 | 12.000 |
| Enerji xərcləri | 137.605 | 113.136 |
| Qaz xərcləri | 56.606 | 48.609 |
| Su və kanalizasiya xərcləri | 14.629 | 10.559 |
| Rabitə xərcləri | 4.096 | 3.243 |
| Bank xidməti üzrə xərclər | 8.926 | 7.192 |
| Amortizasiya xərcləri | 56.177 | 27.120 |
| Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar | 0 | 0 |
| Təmir xərcləri | 1.570 | 2.273 |
| Sığorta üzrə xərclər | 7.913 | 2.992 |
| Əmlak vergisi | 1.666 | 1.166 |
| Torpaq vergisi | 638 | 638 |
| Digər xərclər | 210.579 | 20.779 |
| **CƏMİ** | **917.823** | **597.143** |